Elmi Xəbərlər Jurnalı Nömrə 3, 2024 149-152
DOI:10.30546/gdu.3.2024

**UOT:159.9.**

# AZYAŞLILARIN PSİXOLOJİ VƏZİYYƏTİ VƏ AZYAŞLILARIN MƏKTƏB TƏRBİYƏSİ

***Alməmmədova Elgünara Fərhad qızı***
***BDU-nun Qazax Filialı***
***Esmirarafiqli@gmail.com***

**Xülasə:** *Bu məqalədə azyaşlı uşaqların psixologiyasından, onların ailədə və cəmiyyətdə formalaşmasından, tərbiyəsindən və təsir edən amillərdən bəhs edilmişdir. Uşaq psixologiyasının çox mühüm əhəmiyyət kəsb etməsi və uşaqların cəmiyyətdə sağlam şəxsiyyət kimi formalaşması məqalə öz əksini tapmışdır. Azyaşlıların məktəb tərbiyəsi və onun mühüm xarakterik xüsusiyyətləri təhlil olunaraq nəzərdən keçirilmişdir.*

**Açar sözlər:** psixologiya, məktəb, tərbiyə, cəmiyyət, şəxsiyyət, azyaşlılar, ünsiyyət, mühit, əməkdaşlıq.

**Key words:** sychology, school, education, society, personality, minors, communication, environment, cooperation.

**Ключевые слова:** психология, школа, воспитание, общество, личность, несовершеннолетние, общение, среда, сотрудничество.

Psixologiya və pedaqogika hər bir şəxsin inkişafında və cəmiyyətdə şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Təlim və təhsil prosesində azyaşlı uşaqların psixoloji vəziyyəti və tərbiyəsi mühüm xarakter daşıyır. Ümumiyyətlə, uşaq psixologiyasını, azyaşlıların psixoloji vəziyyətini, problemlərini aradan qaldırmaq üçün valideynlərlə baxça, məktəb və müəllim kollektivinin sıx əməkdaşlıq etməsi, birgə fəaliyyəti çox mühüm əhəmiyyət kəsb edir.

Azyaşlı uşaqların və kiçik məktəblilərin sosial-psixoloji məqamlarını, problemlərini vaxtında araşdırıb həll yolları tapmaq və eyni zamanda onlarla müntəzəm olaraq söhbətlər aparmaq vacib hallardandır. İstər valideyn, istərsə də təlimçi psixologiyanı, azyaşlıların psixoloji vəziyyəti ilə bağlı müəyyən halları bilməli və onları cəmiyyətə yararlı vətəndaş kimi yetişdirməlidir.

Hər bir insanın inkişaf edib yetişməsində müəyyən sosial və bioloji amillər vardır ki, onların qarşılıqlı təsiri və fəaliyyəti şəxsiyyət formalaşır. Bunlardan ən başlıcası irsiyyətdir. Bu faktor insanlarda nəsildən-nəslə keçir və maddi daşıyıcıları genlər hesab edilir. İnsanlar mühitdə doğulur, inkişaf edir, böyüyür və cəmiyyətə faydalı şəxs kimi formalaşır, həyat boyu mühit və tərbiyənin təsirləri ilə dəyişir.

İnsanların cəmiyyətdə formalaşmasına təsir edən amillərdən mühit başlıca rol oynayır. Mühitin azyaşlı uşaqlara təsiri daha çoxdur, onlar mühitdə olan mənfi və müsbət təsirlərə daha tez məruz qalırlar. Əsas təsirlərdə hesab edilən tərbiyə uşaqlara planlı və məqsədyönlü şəkildə təsir edir.

Tərbiyə-uşaqların maraq və qabiliyyətlərini inkişaf etdirərək təbii imkanlarının yaranmasına şərait yaradır, bu da ilk öncə ailədən və böyüdüyü mühitdən asılı olur. Düzgün ailə tərbiyəsi almış uşaqlar məktəb mühitində də nümunəvi şagirdlərdən olur. Bu da onların daha keyfiyyətli təhsil almasına, gələcəkdə cəmiyyətə daha yaralı vətəndaş olmasına gətirib çıxarır.

Ümumiyyətlə insanların cəmiyyətdə şəxsiyyət kimi formalaşmasına təsir edən amillər – irsiyyət, tərbiyə, mühit və insanın şəxsi fəallığı bir-biri ilə sıx bağlıdır və əlaqəlidir. Onlar vəhdət təşkil edərək fərdin formalaşmasına xüsusi təsir göstərir. Heç də təsadüfi deyil ki, azyaşlıların psixoloji vəziyyəti təlimdən vacibdir, çünki hər bir şagirdə fərdi olaraq

DOI:10.30546/gdu.3.2024

yanaşılmalıdır. Nəzərə alsaq ki, hər bir şagirdin özünəməxsus psixologiyası və xarakteri var. Tərbiyəçilər bir şagirdə yanaşdığı kimi digər şagirdə yanaşmamalıdır.

Bu baxımdan müəllimlər şagirdlərin təlim-tərbiyəsinə tam məsuliyyətlə yanaşmalı, onların lazım olan şəraitdə təhsil almalarında və böyüyüb cəmiyyət üçün layiqli vətəndaş kimi formalaşmasında böyük rol oynayırlar. Burada üçtərəfli münasibət – şagird, valideyn və müəllimlərin öhdəlikləri vəhdət təşkil edir və bunlar məqsədyönlü xarakter daşımalıdır.

Azyaşlıların tərbiyəsində onları yersiz tənqid etmək, danlamaq, fiziki cəzaya əl atmaq kimi qeyri-pedaqoji vasitə və üsullardan istifadə etmək tövsiyə olunmur. Çünki, bütün bunlar azyaşlıların şüuruna və psixologiyasına mənfi təsir edərək məktəbə, təlim və tədrisə, eyni zamanda həmin fənni tədris edən müəllimlərə qarşı soyuq münasibət yaradır, həmin fənnə marağı azaldır.

Belə ki, jurnalist, yazıçı, rus pedaqoji məktəbinin, müasir pedaqogikanın banilərindən hesab edilən və maarifçi Uşinski uşaqların tərbiyə məsələlərində çox həssas davranmış, azyaşlı uşaqların cəmiyyətə hazırlanmasına mühüm əhəmiyyət vermişdir. O söyləyirdi ki, tərbiyə prosesində kobudluğa, əsəbə, yanlış pedaqoji üsullardan istifadə etməyə icazə verməmiş və bu halların azyaşlıların vəziyyətinə, psixologiyasına mənfi təsir göstərdirdiyini vurğulamışdır.

Ona görə də hər bir şagirdə onun psixologiyasına uyğun yanaşmaq lazımdır. Burada müəllimin ən yaxın dostu valideyndir. Ən xırda narazılıqların böyüyüb böyük münaqişəyə çevrilməsinə gətirib çıxarmamaq və yaxud neqativ halların yaranmaması üçün müəllim tam diqqətli olmalı, şagirdin hər bir hərəkətini diqqətlə izləməli, yarana biləcək ziddiyyətləri asanlıqla aradan qaldırmağa nail olmalıdır.

Sinifdə müəllim-şagird ünsiyyətinin rolu çox böyükdür. Belə ki, şagird -şagird, şagird-müəllim ünsiyyəti sinifdə dərs prosesi zamanı önə çəkilən ən böyük faktordur. Şagirdin şəxsiyyət kimi formalaşmasında ünsiyyətlə yanaşı, təhsil aldığı və onu əhatə edən mühitin də çox böyük rolu var. Çünki ətraf mühit istər-istəməz azyaşlılara təsir edir və mühit onları öz təsiri altına alır. Bu zaman edilən təsir ya mənfi, ya da müsbət ola bilər. Odur ki, mühit ən önəmli vasitədir.

Azyaşlıların şəxsi fəallığına artırmaq üçün müxtəlif formalar var. Buraya zehni, bədii, əmək kimi fəaliyyət formaları daxildir. Uşaqlar kollektiv şəkildə oxumağı, yazmağı, oynamağı, bir sözlə bilik və bacarıqlara yiyələnmilərində kollektiv işin rolu mühüm əhəmiyyət daşıyır. Ona görə də məktəbdə, ailədə, ictimai yerlərdə yaranmış olan situasiyalarda şagirdlərin davranış tərzləri, özlərini necə aparmaları və düşdüyü çətin vəziyyətlərdə necə davranmaları önə çıxır.

Azərbaycan pedaqoq və mütəfəkkirləri insanların yetişdirilməsində, tərbiyənin, təhsilin kiçik yaşlardan həyata keçirilməsinin böyük əhəmiyyətini vurğulayaraq təbliğ etmişlər. A.Bakıxanov, H. Zərdabi, M.F.Axundov və digərləri yaradıcılıqlarında tərbiyə məsələlərinə daha çox önəm vermişlər. Onların əsərlərində bunu görmək mümkündür.

Azyaşlıların məktəb tərbiyəsi prosesində müəllimlər şagirdlərin davranışlarına, şüuruna, psixoloji aləminə təsir edərək məqsədə müxtəlif yollarla çatırlar. Tərbiyə metodları vasitəsilə azyaşlı uşaqlarla onların potensialına, imkanlarına və maraqlarına uyğun olaraq pedaqoqlar vasitəsilə həyata keçirilir. Buna əsasən söyləyə bilərik ki, müəllim müxtəlif metodlardan istifadə etməlidir, çünki hər hansısa tətbiq olunmuş bir metod digər şagirdlərlə təlim prosesi zamanı tətbiq olunan zaman səmərəli və əlverişli olmaya bilər. Nəticədə pedaqoji peşəkarlığın mühüm və əhəmiyyətli şərtlərindən ən vacibi tərbiyə metodlarının düzgün təyin olunması və dəqiq şəkildə tətbiq edilməsidir.

DOI:10.30546/gdu.3.2024

**Nəticə**

Aparılan tədqiqatlar göstərir ki, şagirdlərin şəxsiyyət kimi formalaşmasında tərbiyə, mühit, irsiyyət və şəxsi fəallıq əsas götürülür. Tərbiyə azyaşlıların şəxsiyyət kimi inkişafında həlledici rol oynayır. Ümumiyyətlə, tərbiyə insanların xarakterik xüsusiyyətlərini özündə əks etdirir. Davranış, ünsiyyət, temperament tərbiyənin məhsuludur.

Azyaşlıların psixologiyası və onların məktəb tərbiyəsi mühüm əmiyyət kəsb edən məsələdir.

Bacarıqlı müəllimlər azyaşlılarla fəaliyyət prosesində tərbiyəedici situasiya yaradaraq onların bilik və bacarıqlarının önə çıxmasına şərait yaradırlar. Bunun nəticəsində şagirdlərin xüsusilə azyaşlıların təlim-tərbiyə prosesində olan müəyyən çətinliklər aradan qalxır, səmərəli tədrisə şərait yaradılır .

Azyaşlı uşaqların psixoloji vəziyyəti hər zaman diqqət mərkəzində olmalıdır, çünki onlar həyatda baş verən təsirlərə qarşı daha çox həssasdırlar. Azyaşlılara cəmiyyətin, müəllimlərin və valideynlərin rəftarı, tərbiyə üsulu və reaksiyası mühüm əhəmiyyət kəsb edir. Azyaşlılar təhsil və təlim prosesində bilik və bacarıqlar əldə edir, onların bir şəxsiyyət kimi formalaşmasında sinfin, müəllimlərin və məktəbin rolu böyük olur.

Bu nəticəyə gəlmək olar ki, azyaşlıların psixoloji vəziyyəti və onların tərbiyəsi mühüm əhəmiyyət kəsb edir və hər zaman diqqət mərkəzində olmalıdır .

***Ədəbiyyat***


1. Abbasov Q., Hacıyev O. Fəlsəfə. Bakı.2001.
2. Əhmədov Y. Sosial işin nəzəriyyəsi və təcrübəsi. Bakı.2013
3. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı.2012
4. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin tərbiyə prosesi. Bakı 2003
5. Sosial işin əsasları. Müntəxəbat. Bakı.2006
6. Uşaq hüquqları Konvensiyası.UNİCEF. 2005.
7. İsmixanov M. Pedaqogikanın əsasları. Bakı 2008
8. Həmzəyev M.Yaş və pedaqoji psixologiyanın əsasları Bakı 2003.
9. Əliyeva Z. Pedaqogika.Bakı 2004
10. Kazımov N. Pedaqogika. Bakı


## PSYCHOLOGİCAL CONDİTİON OF MİNORS. SCHOOL EDUCATİON OF MİNORS

***Almammadova Engunara Farxad***

***Summary***

This article talks about the psychology of young children, their formation and upbringing in the family and society, and the factors affecting them. The fact that child psychology is very important and the formation of children as a healthy personality in society is reflected in the article. School education of minors and its important characteristic features were analyzed and reviewed in the article.

DOI:10.30546/gdu.3.2024

# ПСИХОЛОГИЧЕСКОЕ СОСТОЯНИЕ НЕСОВЕРШЕННОЛЕТНИЕ ШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ НЕСОВЕРШЕННОЛЕТНИХ

***Алмамедова Енгунара Фархадовна***

***Резуме***

В данной статье говорится о психологии детей раннего возраста, их формировании и воспитании в семье и обществе, а также факторах, влияющих на них. В статье отражено то, что детская психология имеет большое значение и формирование ребенка как здоровой личности в обществе. В статье проанализированы и рассмотрены школьное воспитание несовершеннолетних и его важные особенности.

***Rəyçi: dosent Arif Veyisov***
***İctimai və təbiət fənləri kafedrasının 21 may 2024-cü il tarixli iclasın 17 saylı protokolu***
***Daxil olma tarixi 16 sentyabr 2024-cü il***